**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Əlyazması hüququnda**

**TƏYYİBƏ ƏLİ QIZI İBRAHİMİ**

# QADINLARIN ƏMƏYİNİN HÜQUQİ MÜHAFİZƏSİ: BEYNƏLXALQ HÜQUQ VƏ İRAN İSLAM RESPUBLİKASININ QANUNVERİCİLİYİ

5603.01- "Beynəlxalq hüquq; insan hüquqları"

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-201**

Dissertasiya işi AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunda yerinə yetirilmişdir

**Elmi rəhbər :** **L.H. Hüseynov**
**hüquq üzrə elmlər doktoru, professor**

**Rəsmi opponentlər:** **R.F.Məmmədov**
**hüquq üzrə elmlər doktoru**

**E.Z.Eyvazov**
**hüquq üzrə fəlsəfə doktoru**

**Aparıcı təşkilat:** **AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu**

Dissertasiya işinin müdafiəsi "26____" __09______ 2014-ci il tarixdə saat "___" Bakı Dövlət Universitetinin nəzdindəki FD.02.13 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az-1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris binası, 901 saylı auditoriya

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" ________2014-cü il tarixdə göndərilmişdir.

**FD.02.13 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.Məmmədov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Dissertasiya mövzusunun aktuallığı.** Müasir qloballaşma dövründə inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, hər bir dövlət özünün siyasi inkişaf strategiyasını müəyyən edərkən qarşısına cəmiyyətdəki sosial–iqtisadi proseslərin qadın əməyinin hüquqi mühafizəsinə, qadın məşğulluğuna və s. təsirinin müəyyən edilməsi və qiymətləndirilməsi, bu sahədə yaranmış problemlərin həll edilməsi və aradan qaldırılması kimi çox mühüm vəzifələr qoyur.

Müasir dünyada insanların cinsi əlamətlərinə görə əmək fəaliyyətinə məhdudiyyətlər qoymaq iqtisadi, sosial və hüquqi baxımdan düzgün deyil və beynəlxalq hüquq normalarına ziddir. Cinslərin bərabərliyi prinsipi bir çox beynəlxalq-hüquqi və dövlətdaxili aktlarda öz əksini tapmışdır. Bununla yanaşı, qeyd etmək lazımdır ki, hüquqi, siyasi, iqtisadi və sosial sahələrdə qadın və kişinin bərabərliyi məsələsi, o cümlədən qadın əməyinin hüquqi müdafiəsi, faktiki olaraq, tam həll olunmayıb və bir sıra hallarda bu problem kifayət qədər kəskin şəkildə ifadə olunur. Bu səbəbdən, bu problemin nəzəri cəhətdən araşdırılması və həyata keçirilməsi praktikasının tədqiqi, təbii və aktual qalmaqda davam edir.

Digər tərəfdən, bir sıra inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, müasir cəmiyyətin inkişafı həmin cəmiyyətdə ayrı-ayrı iqtisadi sahələr üzrə qadın əməyinin yüksək səviyyədə təşkili və onun səmərəli hüquqi müdafiəsi mexanizmindən asılıdır. Yəni qadınların əmək hüquqları, qanunla müəyyən edilmiş və təminat verilmiş məşğulluq imkanları yüksək səviyyədədirsə, onların cəmiyyətə inteqrasiya olunmasına suni yaradılmış maneələr yoxdursa, həmin cəmiyyətin daha mütərəqqi inkişaf edəcəyinə inam çoxalır. Buna görə də hər bir ölkə öz iqtisadi və sosial inkişaf strategiyasını müəyyənləşdirərkən qadınların əməyinin hüquqi baxımdan müdafiəsinə, gender siyasətinə xüsusi diqqət yetirməlidir.

Yaxın Şərq ölkələrinin təcrübəsi göstərir ki, qadın əməyinin beynəlxalq hüquqa əsasən məqsədyönlü olaraq qorunması siyasəti ölkənin ümumi sosial-iqtisadi inkişafına ciddi təsir göstərən vacib amillərdən biridir. Qeyd etmək lazımdır ki, qadınların ümumi sayının dünya əhalisinin yarısını təşkil etdiyini nəzərə alaraq, eləcə də işləyən qadınların faizlə payının getdikcə artması onların hüquqlarının milli təşkilatlar tərəfindən, beynəlxalq səviyyədə isə universal və regional



beynəlxalq təşkilatlar tərəfindən daha çox müdafiə olunmasına gətirib çıxardan səbəblərdən biridir. Dissertasiya işi məhz buna görə bu sahədə olan problemlərin araşdırılması və həlli istiqamətlərinin müəyyənləşdirilməsi baxımından aktualdır və eyni zamanda elmi və praktiki baxımından mühüm əhəmiyyət kəsb edir.

Tədqiqatın digər bir aktual cəhəti ondan ibarətdir ki, dissertasiyada qadın əməyinin mühafizəsi probleminin islam dövləti olan İranın qanunvericiliyində öz həllini necə tapması araşdırılır, bu sahədəki İran qanunlarının beynəlxalq hüquq normaları ilə nisbətinə və qarşılıqlı münasibətlərinə aydınlıq gətirilir. Tədqiqat mövzusunun başqa bir aktual cəhəti də ondan ibarətdir ki, bu gün bəzən qadının islamdakı yeri bir çoxları tərəfindən düzgün anlaşılmır və islamda qadına münasibət birtərəfli dəyərləndirilir. Təbii ki, bu da göstərilən sahədə aparılmış tədqiqatların kifayət qədər olmamasından, yaxud bu sahədə informasiyanın düzgün çatdırılmamasından və ya bilə-bilə təhrif edilməsindən irəli gəlir.

Dissertasiya işində konkret olaraq İran İslam Respublikasının timsalında bir islam dövlətində qadın əməyinin mühafizəsi problemi kimi əhəmiyyətli bir problemin beynəlxalq hüquqla qarşılıqlı əlaqədə araşdırılması göstərilən mövzunun nəinki bu gün üçün, eləcə də perspektiv inkişaf baxımından əhəmiyyətini artırır, bu sahədə olan elmi-nəzəri və praktiki boşluqları müəyyən dərəcədə aradan qaldırmaq üçün geniş imkanlar yaradır.

Bununla yanaşı, qadın hüquqlarının qorunması və xüsusi ilə qadın əməyinin mühafizəsinə dair problemlərin araşdırılması, bu sahədə beynəlxaq hüquq normalarını ayrı-ayrı dövlətlərin daxili qanunvericiliklərinə implementasiya olunmasına dair müəyyən tövsiyələrin verilməsi və təkliflərin irəli sürülməsi, mühüm əhəmiyyət kəsb edir.

**Problemin öyrənilmə səviyyəsi.** Qadın əməyinin hüquqi mühafizəsi sahəsində əsas xüsusiyyətlər, sahə üzrə institusional təminat məsələləri, beynəlxalq təcrübələrdən istifadə imkanları və s. bu kimi problemlər haqqında bir sıra mühüm nəzəri-konseptual və praktiki məsələlər tanınmış alimlər, bu sahə üzrə yerli və beynəlxalq ekspertlər tərəfindən müntəzəm olaraq işıqlandırılmışdır.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, qadın əməyinin hüquqi mühafizəsi problemi qadın hüquqlarının müdafiəsi probleminin bir hissəsidir. Azərbaycan beynəlxalq hüquq

ədəbiyyatında insan hüquqları və əsas azadlıqlarının müdafiəsinə, o cümlədən qadın haquqlarının müdafiəsi probleminin müxtəlif aspektləri azərbaycan tədqiqatçıları P.A.Bayramovanın, Ə.İ.Əliyevin, Ş.İ.Əliyevin, V.Ə.İbayevin, L.Q. Hüseynovun, R.F. Məmmədovun, C.Y. Qaracayevin və s. əsərlərində tədqiq edilsədə, qadın əməyinin hüquqi mühafizəsi problemi ayrıca elmi araşdırma obyekti olmamışdır.

Həmçinin, bu mövzuya aid iran hüquqşünasları və mütəxəssisləri tərəfindən fars dilində yazılmış ədəbiyyatdan geniş istifadə edilimişdir. M. Behnazın, N. Borreşradın, H.Cəbbarinin, A.Cəvadinin, Z.Davərin, Ə.Dehxodanın, S. Feyzullahın, E.Məryəmın, M. Məhəmmədin, N. Məhəmmədinin, M. Mehdinin, Ə.Pənahinin, N.Qurbaniyənin, N.Rəsaniniyanın, F.Saberin, F.Şayqanın, və başqalarının elmi əsərlərində qadınların əməyinin hüquqi mühafizəsi, eləcə də bu sahədə beynəlxalq hüquq normalarının tətbiqi ilə institusional təminat məsələləri, müxtəlif problemlərin həlli ilə bağlı məsələlər öz əksini tapmışdır.

Postsovet və beynəlxalq məkanda E.M.Ametistovun, Q.K. Dmitriyevanın, İ.Y.Kiselyovun, E.N.Korşunovanın, E.A.Petruşinanın, S.V.Poleninanın, İ.E.Rubinanın, L.Tarletskayanın, V.N.Tolkunovanın, N.N.Şapovalovanın, A.S.Çebotaryovanın, L.N.Zavadskayanın, və s. alim və mütəxəssislərin elmi əsərlərində, məqalələrində, araşdırmalarında sahə üzrə bir sıra məsələlər tədqiq olunmuş və bu istiqamətdə qiymətli fikirlər, konseptual ideyalar irəli sürülmüşdür.

Tədqiqatın aparılmasında digər ölkələrin, o cümlədən Qərb ölkələrin alimlərinin də əsərlərindən də istifadə edilmişdir. Onların arasında P.Aburdenenin, K.Balbekin, A. Birnesin, Q.Brouksun, R.F.Drinanın, R. Kukun, J.Naisbittin, İ.Pinçbekin, D.Şimonoviçin və başqalarının əsərlərini qeyd etmək olar.

Lakin yuxarıda qeyd edilən bu və ya digər müəlliflərin apardıqları tədqiqatların əhəmiyyətini azaltmadan qeyd etmək lazımdır ki, həmin tədqiqatlarda müasir dövrdə qadınların əməyinin hüquqi mühafizəsi ilə bağlı (beynəlxalq təcrübə nəzərə alınmaqla) problem tədqiqat predmeti kimi kompleks şəkildə kifayət qədər ətraflı tədqiq olunmamışdır.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, bu problemin ayrı-ayrı məqamlarının və aspektlərinin tədqiq edilməsinə baxmayaraq, bu problemin sistemli şəkildə araşdırılması ayrıca



aparılan müstəqil tədqiqatın predmeti olmamışdır və bu sahənin tədqiqində müəyyən boşluqlar var. Hazırki elmi tədqiqat işi bu boşluqları müəyyən dərəcədə aradan qaldırmağa, beynəlxalq və dövlətdaxili hüquqda qadın əməyinin hüquqi mühafizəsi probleminin mahiyyətini və məzmununu sistemli şəkildə tədqiq etməyə və praktiki əhəmiyyətini göstərməyə yönəlib.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın **obyekti** qadın əməyinin müdafiəsində beynəlxalq-hüquqi tənzimləmə mexanizmlərinin tədqiq edilməsi, bu sahədə beynəlxalq-hüquqi normaların İranın və digər ölkələrin milli qanunvericiliyinə implementasiyası, İran İslam Respublikasında qadın əməyinin hüquqi müdafiəsi sahəsində nizamlanmanın beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi problemləri, onların həm daxili, həm də beynəlxalq faktorlara qarşı reaksiyasının çeviklik səviyyəsi, eyni zamanda inkişaf perspektivləri ilə əlaqədar məsələlər çıxış edir.

Tədqiqatın **predmetini** qadın əməyinin mühafizəsinə dair beynəlxalq-hüquqi normaların İran İslam Respublikasının daxili qanunvericiliyinə implementasiyası məsələləri, qadın əməyinin müdafiəsinə dair İran İslam Respublikasının qanunvericiliyin son dövrlər ərzində müasir vəziyyətinin formalaşması və inkişafının təhlili məsələləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Hazırki tədqiqatın əsas **məqsədi** qadın əməyinin mühafizəsinin müasir beynəlxalq hüquqda nizamlanması mexanizminin və onun xüsusiyyətlərinin araşdırılması, İran İslam Respublikasının daxili qanunvericiliyində ölkədəki mövcud vəziyyət nəzərə alınmaqla qadın əməyinin hüquqi mühafizəsinin təmin olunması, dünyada hələ mövcud olan qadın əməyinə qarşı diskriminasiyanın aradan qaldırılması əsasında bu sahə üzrə inkişaf perspektivlərinin müəyyənləşdirilməsi və bu istiqamətdə konseptual təkliflərin və tövsiyələrin işlənib hazırlanmasını təmin etməkdən ibarətdir.

Dissertasiya işində nəzərdə tutulan məqsədə nail olmaq üçün aşağıdakı **vəzifələrin** həlli qarşıya qoyulmuşdur:

- qadın əməyinin mühafizəsinin müasir beynəlxalq hüquqda nizamlanması mexanizminin tədqiq edilməsi;
- qadın əməyinin mühafizəsinin müasir beynəlxalq hüquqda nizamlanması mexanizminin xüsusiyyətlərinin araşdırılması;

- qadın əməyinin mühafizəsi sahəsində nəzəri-metodoloji əsasların tədqiq edilib ümumiləşdirilməsi;

- qlobal müstəvidə qadın əməyinin hüquqi mühafizəsinin dövlət səviyyəsində tənzimləmə məsələlərinin öyrənilməsi;

- inkişaf etmiş və etməkdə olan dövlətlərdə qadın əməyinin qorunması sahəsində idarəetmə mexanizminin əsas xüsusiyyətlərinin təhlil edilməsi və qiymətləndirilməsi;

- dünyada qadın hüquqlarına qarşı diskriminasiya proseslərinin qarşısının alınması üçün qəbul olunmuş beynəlxalq razılaşmaların ölkənin sosial-iqtisadi inkişafına təsirinin tədqiqi;

- İran İslam Respublikasında qadın əməyinin mühafizəsi, məşğulluğun təmin olunması istiqamətləri ilə bağlı qanunvericilik bazası və institutsional mexanizmin əsas xüsusiyyətlərinin təhlili;

- İran İslam Respublikasında qadın əməyinin mühafizəsi sahəsində daxili qanunvericiliyin təkmilləşdirilməsinə dair əsas istiqamətlərin araşdırılması.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** problemlə bağlı yaranmış müasir hüquqi və iqtisadi nəzəriyyələr, yerli və xarici ölkə alimlərinin tədqiqatları, qlobal və lokal səviyyədə qadın əməyinin hüquqi mühafizəsi sahəsində yaranmış hüquq münasibətlərin inkişaf təcrübəsi, eləcə də İran İslam Respublikasında qadın əməyinin qorunması, məşğulluq, gender bərabərliyi sahəsində həyata keçirdiyi siyasətin taktiki və strateji istiqamətlərində rəsmi mövqeyi təşkil edir.

Tədqiqat dialektik metodologiya və sistemli təhlil, məntiqi ümumiləşdirmə, müqayisəli təhlil üsulları kimi tədqiqat üsullarının köməkliyi ilə yerinə yetirilmişdir.

Tədqiqatın informasiya bazasını beynəlxalq səviyyədə əməyin mühafizəsi üzrə formalaşdırılmış Beynəlxalq Əmək Təşkilatının, Birləşmiş Millətlər Təşkilatının beynəlxalq-hüquqi xarakterli sənədləri, İran Milli Məclisinin tərəfindən qəbul edilmiş normativ sənədlər, Qadın Hüquqlarının Müdafiəsi Təşkilatının, Sosial Məsələlər üzrə Müdafiə Nazirliyinin, İran Milli Statistika Komitəsinin hesabatları, normativ sənədləri və İran İslam Respublikasının müvafiq sahə üzrə qəbul olunmuş normativ hüquqi aktları, qanunvericilik topluları və eləcə də digər təşkilatların məlumatları, sahə üzrə mövcud yerli və xarici internet-elektron informasiya resursları (saytları), fərdi şəkildə aparılmış hesabatların nəticələri təşkil edir.



**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya işinin elmi yeniliyi müasir dövrdə qadın əməyinin hüquqi mühafizəsi sahəsində mövcud tənzimləmə mexanizminin araşdırılmasından, hüquqi baxımdan əməyin mühafizəsi sahəsində mövcud institutsional təminatın qiymətləndirilməsindən, qəbul olunmuş beynəlxalq səviyyəli saziş və müqavilələrə uyğun olaraq İranda gender bərabərliyi sahəsində yaranmış problemlərin həlli istiqamətlərinin elmi cəhətdən əsaslandırılmasından, bu sahədə beynəlxalq təcrübələrə əsaslanaraq elmi nəzəri ümumiləşdirmələrin aparılmasından, konkret təklif və tövsiyələr sisteminin hazırlanmasından ibarətdir.

Tədqiqat işinin yeniliyini özündə əks etdirən aşağıdakı əsas **elmi müddəalar** müəllif tərəfindən müdafiəyə təqdim olunur:

1.Qadın əməyinin mühafizəsində beynəlxalq hüququn rolu və əhəmiyyəti cinsi əlamətə görə ayrı-seçkiliyin aradan qaldırılmasına və, bununla yanaşı, qadın əməyinin xüsusi nizamlanmasına yönəlmiş beynəlxalq hüquqi standartların tərtib edilməsindən ibarətdir. Bu həm də onların təsirinin effektliyini təmin edir;

2. Beynəlxalq hüququn müasir inkişaf tendensiyalarından biri qadın əməyinin hüquqi baxımdan tənzimlənməsi sahəsində məhdudlaşdırıcı normalardan sərbəstləşdirilmiş normalara keçidi formalaşdırmaqdır ki, İranda da bu məsələlərin reallaşdırılması zəruri hesab olunur.

3. Beynəlxalq Milli Təşkilatının, ixtisaslaşdırılmış təsisatı olan Beynəlxalq Əmək Təşkilatının qadın əməyinin mühafizəsinə dair beynəlxalq hüquqi normaların İranda islam dəyərlərinə uyğunlaşdırılması istiqamətində təklif və tövsiyələr hazırlanmışdır.

4. Beynəlxalq Əmək Təşkilatının fəaliyyəti nəticəsində, qadın əməyinin mühafizəsinə dair beynəlxalq-hüquqi normalar, İranda yeni beynəlxalq konvensiyaların qəbul olunması və ya onlara qoşulması ölkənin hüquqi məkana inteqrasiyasını təmin edə bilər.

5. Bütün dünyada qadın əməyinin mühafizəsi üzrə beynəlxalq hüquqi müxanizm və prosedurаların təkmilləşdirilməsi məqsədilə bəzi ölkələrin, xüsusən İranın verdiyi tövsiyələrinin nəzərə alınması zəruridir.

6. İranda qadın əməyinin mühafizəsinin təmin olunması sahəsində yaranmış problemlər, onların səbəbləri, onların aradan qaldırılması mexanizmləri göstərilmişdir.

7. İranda gender bərabərliyinin hüquqi aspektləri nəzərdən

keçirilmiş, onun mühafizəsi sahəsində təkliflər irəli sürülmüşdür.

8. İran İslam Respublikasında qadın əməyinin mühafizəsi islam dəyərlərinə arxalanır və islam qanunları əsasında həyata keçirilir;

9. Qadın əməyinin qorunması, məşğulluğun təmin olunması sahəsində İran İslam Respublikasının qanunvericiliyi və bu sahədə beynəlxalq hüquq normalar müxtəlif səviyyələrdə və müxtəlif üsullarla eyni məqsədə - qadın əməyinin qorunması və effektiv nizamlanmasına yönəlib.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat nəticəsində əldə edilmiş nəticələrin və irəli sürülmüş təklif və tövsiyələr məcmusunun faydası onların qadın əməyinin hüquqi mühafizəsi, diskriminasiyanın aradan qaldırılması, Tədqiqat nəticəsində əldə edilmiş nəticələrin və irəli sürülmüş təklif və tövsiyələr məcmusunun faydası onların qadın əməyinin hüquqi mühafizəsi, diskriminasiyanın aradan qaldırılması, və təkliflər qadın əməyinin hüquqi mühafizəsi sahəsində yaranmış problemlərin aradan qaldırılmasına, bu sahədə cəmiyyətdə gender siyasətinin həyata keçirilməsi məsələlərinin həllinə, dövlət səviyyəsində qadın hüquqlarının qorunması istiqamətində milli qanunvericilik sistemində islahatların aparılması və ədalətli sosial-iqtisadi münasibətlərin formalaşdırılması məqsədilə tövsiyə oluna bilər.

Dissertasiya işi qadın əməyinin mühafizəsi ilə əlaqədar konkret istiqamətlərin araşdırılması üçün bu sahədəki gələcək elmi tədqiqat işlərində, ali məktəblərdə beynəlxalq hüquq və insan hüquqları üzrə dərsliklərdə, dərs vəsaitlərində, o cümlədən, tədris-metodoloji proqramların və tədris kursların tərtib edilməsində, bütövlükdə qadın hüqrlarının qorunmasına dair elmi və praktiki tədqiqatlarda, qadın əməyinin hüquqi mühafizəsi ilə bağlı sahədə müxtəlif dövlət və ictimai qurumlarının praktiki fəaliyyətində, qadın əməyinin mühafizəsi sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsində, bu sahəyə dair ali məktəblərdə ixtisaslaşmış və hüquq fakültələrinin tələbələri ilə müvafiq məşqələlərin keçirilməsində, və digər elmi-tədris müəssisələrdə tədris prosesində istifadə edilə bilər. Dissertasiya işinin əhəmiyyəti həm də ondan ibarətdir ki, qadın əməyinin mühafizəsi sahəsində ölkədaxili hüquq sistemi ilə beynəlxalq hüquq sistemi arasında koordinasiyanın yaranmasına və ölkədaxili hüquq sisteminin beynəlxalq hüquq sistemi ilə uyğunlaşması sahəsində aparılan işlərə yardım edə bilər.



Dissertasiya işi gender bərabərliyi, insan hüquqlarının qorunmasının hüquqi mexanizmi sahəsində metodoloji qanuna-uyğunluqlar, konseptual yanaşmalar, prinsiplər və demokratik meyllər çərçivəsində yekunlaşdırılmış, təcrübi, eyni zamanda praktiki nəticələrə əsaslanan elmi əsər kimi ali təhsil müəssisələrində istifadə oluna bilər. Dissertasiya işi alimlər, mütəxəssislər və ekspertlər, hüquq fakültələrinin doktorantları və maqistratları, tələbələri və, xüsusilə də, beynəlxalq hüquq ixtisası üzrə təhsil alan tələbələr tərəfindən (həm İran İslam Respublikasında, həmdə Azərbaycan Respublikasında) "Beynəlxalq hüquq", "İnsan hüquqları", "Əmək hüququ" fənnləri üzrə, gender bərabərliyi, insan hüquqlarının qorunması sahələri üzrə, eləcə də iqtisadi fənlərin tədrisində mənbə kimi istifadə edilə bilər.

Bu araşdırma işi həmçinin vəkillər və beynəlxalq hüquqşünaslar, diplomatlar və insan hüquq müdafiəçiləri tərəfindən istifadə edilə bilər. Həmçinin Beynəlxalq Millətlər Təşkilatının ixtisaslaşdırılmış qurumu olan Beynəlxalq Əmək Təşkilatının fəaliyyəti və insan hüquqları problemləri, o cümlədən gender problemləri ilə maraqlanan şəxslər də bu işdən bəhrələnə bilərlər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda hazırlanmış, həmin institutda geniş müzakirə edilərək müdafiəyə tövsiyə edilmişdir. Dissertasiya işinin ümumi elmi nəticələri beynəlxalq və yerli elmi-praktiki konfranslardakı elmi məruzələrdə əks olunmuş, müzakirə edilərək müsbət dəyərləndirilmişdir, eyni zamanda elmi-praktiki jurnal və konfrans toplularında çap olunmuş 8 elmi məqalədə öz əksini tapmışdır.

Həmçinin tədqiqat işinin nəticələrindən İran İslam Respublikasının qadın hüquqlarının müdafiəsi ilə bağlı gender bərabərliyi, məşğulluğun təmin olunması üzrə mərkəz, o cümlədən regionlar üzrə qanunvericilik sənədlərindən, qanunlarının hazırlanmasında və təkmilləşdirilməsində istifadə olunmuşdur.

Tədqiqat işində irəli sürülən nəzəri-praktiki təklif və tövsiyələr İran İslam Respublikasının Qadın Hüquqlarının Müdafiəsi Komitəsi, Əmək və Məşğulluq Nazirliyi tərəfindən, o cümlədən regional dövlət təşkilatları tərəfindən qadın əməyinin hüquqi mühafizəsi sahəsində əsas istiqamətlərin işlənib hazırlanmasında istifadə üçün qəbul olunmuşdur.

**Dissertasiya işinin quruluşu**. Dissertasiya giriş, 9 paraqrafi birləşdirən 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmaqla 163 səhifə həcmindədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsədi və vəzifələri, obyekti və predmeti göstərilir, eyni zamanda işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiysı şərh olunur.

Birinci fəsil **"Qadın əməyinin mühafizəsi: anlayışı və normativ tənzimlənməsi"** adlanır və üç yarımfəsildən ibarətdir. Bu fəslin **"Əməyin mühafızəsi institutunun beynəlxalq əmək hüququnda və milli qanunvericilikdə yeri və əhəmiyyəti"** adlı birinci yarımfəslində əməyin mühafizəsi institutunun beynəlxalq əmək hüququnda və milli qanunvericilikdə yeri və əhəmiyyəti tədqiq olunmuş, BMT-nin ixtisaslaşdırılmış təşkilatlarından birincisi olan Beynəlxalq Əmək Təşkilatının (ingl. International Labour Organization, İLO) yaranmasından söhəbt açılmış və onun əsas məqsədinin əmək münasibətlərinin nizamlanmasından ibarət olduğu göstərilmişdir. Adıçəkilən təşkilatın bu sahədəki fəaliyyəti araşdırılmış və qadın əməyinin mühafizəsinə dair beynəlxalq-hüquqi normalar BƏT tərəfindən qəbul olunmuş bir sıra Konvensiya, Protokol və Tövsiyələr nəzərdən keçirilmişdir. Bu sənədlrin arasında aşağıdakıları qeyd etmək olar:

"Analığın qorunması haqqında Konvensiya, "Qadınların gecə vaxtı əməyi haqqında" Konvensiya, "Rəngsazlıq işində ağardıcı qurğuşun boyasından istifadə edilməsi haqqında" Konvensiya, "Yeraltı işlərdə qadın əməyinin istifadəsi haqqında" Konvensiya, "Bərabər mükafatlandırma haqqında" Konvensiya, "Əkinçilik haqqında" Konvensiya, 1958-ci ildə qəbul olunmuş BƏT-nın "Əmək və məşğuliyyət sahəsində diskriminasiya haqqında" 111 nömrəli Konvensiya və s. Ümumiyyətlə, qadın hüquqlarının qorunmasına dair beynəlxalq-hüquqi normalar digər beynəlxalq təşkilatlar və qurumlar tərəfindən qəbul edilmiş sənədlərdə də öz əksini tapmışdır. Məsələn, "Qadınlara aid diskriminasiyanın bütün formalarının ləğv edilməsi haqqında" BMT-nin 1979-cu il tarixli Konvensiyası.



Konvensiya üzərində nəzarət 23 müstəqil ekspertdən ibarət olan Qadınlara aid diskriminasiyanın ləğv edilməsi üzrə Komitə nəzarət edir. 2010-cu ilin dekabr ayına 187 ölkə üçün Konvensiya qüvvəyə minmişdir. Azərbaycan bu Konvensiyaya 10 İyul 1995-ci ildə qoşulmuşdur. İran bu Konvensiyaya qoşulmamışdur. Azərbaycan Respublikası 1992-ci ildən Beynəlxalq Əmək Təşkilatının üzvü olmaqla, özündə qadın əməyi və məşğulluğu sahəsində hüquqi normaları əks etdirən bir sıra BƏT Konvensiyalarına qoşulmuşdur.

Bu yarımfəsildə həmçinin qadınların əməyinin mühafizəsi İran və Azərbaycanın konstitusiyaları, habelə hər iki ölkənin Əmək Məcəlləsinin müqayisəli təhlili kontekstindən araşdırılmışdır. İranda qadın əməyinin mühafizəsinin islam inqilabından əvvəlki və sonrakı dövrdə dövtlə tərəfindən qəbul olunmuş inkişaf proqramlarında hansı formada və nə əks olunması məsələləri işıqlandırılır. Aparılan nəzəri araşdırmalar göstərir ki, hər bir dövlət öz inkişaf perspektivlərini təmin edərkən cəmiyyətdəki sosial-iqtisadi proseslərin qadın əməyinin hüquqi mühafizəsinə, qadın məşğulluğuna və s. təsirinin qiymətləndirilməsini əsas kimi götürür. Adətən qadınlar da onlar üçün iş növünün seçilməsində, əmək prosesində, əmək haqqı məsələsində və əmək bazarında kişilər tərəfindən diskriminasiyaya məruz qaldıqlarına görə narazıdırlar. Bu diskriminasiyanı şərh edən, araşdıran və əmək üçün strategiya layihəsini hazırlayan üç əsas nəzəriyyə var. Bunlar aşağıdakılardır:

A. Neoklassik nəzəriyyəsi;
B. Əmək bazarının təhlili nəzəriyyəsi;
C. Cinsiyyət nəzəriyyəsi.

Dissertasiya işinin bu bölümündə hər üç nəzəriyyə üstün və zəif cəhətləri nöqteyi-nəzərindən təhlil və şərh olunur.

Birinci fəslin **"Qadın əməyinin mühafızəsinin xüsusiyyətləri"** adlanan ikinci yarımfəslində qadın əmək fəaliyyəti zamanı aktual olan diskriminasiya və bərabərlik anlayışlarına aydınlıq gətirilir. Qadınlara qarşı Diskriminasiyanın Bütün Formalarının Ləğv Edilməsi Haqqında" (CEDAW) Konvensiyada diskriminasiya anlayışı aşağıdakı kimi göstərilir: "Qadınlara qarşı diskriminasiya bu konvensiyada cinsiyyətə görə hər cür üstünlüyü, istisnanı (məhdudiyyəti) nəzərdə tutur ki, nəticədə bu da qadınların siyasi,

iqtisadi, ictimai, mədəni, mülki və başqa sahələrdə əsas azadlıq və hüquqlarının pozulmasına gətirib çıxarır". (maddə 1)

Beynəlxalq sənədlərdə əməyinin diskriminasiyasına yol verilməməsi prinsipinin belə əks olunur: "Qadınlara qarşı Diskriminasiyanın Bütün Formalarının Ləğv Edilməsi Haqqında" Konvensiyanın (CEDAW) 11-ci maddəsində diqqət qadın əməyində diskriminasiyaya yol verilməməsi prinsipinə yönəldilmiş və bu məsələ geniş şərh olunmuşdur. Əməyin diskriminasiyanın qarşısının alınması prinsipi Beynəlxalq Əmək Təşkilatının məqsədlərindən biridir. Bu prinsip Beynəlxalq Əmək Təşkilatının əsasnaməsinin 41-ci maddəsinin 2-ci bəndində təsdiq edilmişdir. Bundan əlavə Beynəlxalq Əmək Konfransı bu təşkilatın məqsəd və hədəflərini özündə əks etdirən "Filadelfiya bəyannaməsi"ndə yenidən həmin prinsipə əsaslanmışdır.

Bir sıra beynəlxalq sənədlərdə diskriminasiya ümumi şəkildə öz əksini tapmışdır. Belə ki, 1958-ci ildə qəbul olunmuş BƏT-nın "Əmək və məşğuliyyət sahəsində diskriminasiya haqqında" 111 Konvensiyanın 1-ci maddəsinin 1-ci bəndində diskriminasiyanın tərifi aşağıdakı kimi verilmişdir:

a) Məşğuliyyət və ya peşə sahəsindəki bərabrliyin aradan qaldırılmasına səbəb olan irqə, rəngə, cinsiyyətə, dinə, siyasi əqidəyə, milliyətə və ya cəmiyyətdə tutduğu mövqeyə görə hər cür məhrumiyyət və ya imtiyaz halları;

b) Dövlətlərin üzv olduğu işçi və sahiblkar təşkilatları və digər əlaqədar təşkilatlar tərəfindən təyin olunan əməyin və peşə bərabərliyi ilə əlaqədar müddəaların pozulmasına səbəb olan hər hansı istisnalar, məhrumiyyət və ya imtiyaz halları.

Yuxarıda göstərilən maddəni araşdırarkən belə nəticəyə gəlmək olar ki, kişi və qadının siyasi, iqtisadi, ictimai, mədəni və digər sahələrdəki bərabərliyini məhdudlaşdıran və qarşısını alan hər hansı bir qanun, qərar, praktiki metodlar və mövcud adət-ənənələr diskriminasiya sayılır. Qadın və kişi bərabərliyi İran konstitusiyasının 19-cu maddəsində də öz əksini tapmışdır. Bu maddə əsasən cinsi diskriminasiya hallarından bəhs edir. Burada göstərilir ki, İran xalqı etnik mənsubiyyətindən asılı olmayaraq bərabər hüquqlara malikdir. Bu maddəyə əsasən rəng, irq, dil və bu kimi amillər onların hər hansı imtiyaza malik olmasına əsas vermir.



İran dövləti qadın və kişilər arasında bərabərliyin yaradılması, o cümlədən, bir çox əmək sahələrində səylər göstərmiş və bir çox beynəlxalq sənədlərə qoşularaq ölkədə cinsi diskriminasiya hallarının qarşısını almaq üçün lazımi şərait yaratmışdır. Həmin sənədlərə misal olaraq Ümumdünya İnsan Hüquqları Bəyannaməsini göstərmək olar. İran İslam Respublikası İnsan hüquqları komissiyası, Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası tərəfindən hazırlanmış və həmin təşkilatın Baş Assambleyası tərəfindən təsdiq olunmuş bəyannaməni qəbul etmişdir.

Buna görə də əməyin diskriminasiyasının qarşısının alınması prinsipi İranın hüquq sistemində qəbul olunmuş prinsipdir. Bütün fərdlər arasında hüquq və azadlıqları, xüsusilə əmək sahəsində bərabərlik yaranmayana qədər, cəmiyyət səviyyəsində ictimai ədalətin bərqərarı mümkün deyil.

Birinci fəslin **"Qadın əməyinin mühafızəsi sahəsində beynəlxalq-hüquqi standartlar: anlayışı və əhəmiyyəti"** adlanan üçüncü yarımfəslində beynəlxalq təşkilatların qadın əməyinin hüquqi mühafizəsi sahəsində keçirdiyi konfranslar nəticəsində qəbul etdiyi mühüm beynəlxaq-hüquqi sənədlərdə adıçəkilən sahə üzrə başlıca standartlar və anlayışlar təhlil olunur. Bu sırada ən mühüm sənədlər Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuşdur. Birləşmiş Millətlər Təşkilatı dünya standartlarını müəyyənləşdirən bir qurum kimi strategiyaları, standartları, proqramları və dünyanın ümumi prinsiplərini qadın əməyinin müəyyənləşdirilməsinə yönəltməyə çalışır.

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi qadınlarla kişilərin hüquq bərabərliyini dövlətlərə və təşkilatlara tanıtdırdı. Belə bir sənəd heç vaxt olmamışdı, indi isə burada bütün insanların bərabərliyi elan edilirdi. Bəyannamənin preambulasında kişilərlə qadınların hüquq bərabərliyinə təkid edilir, dinindən cinsindən, dilindən, irqindən asılı olmayaraq onalrın bərabər hüquqa malik olduqlarını vurgulanırdı.

1948-ci ildən başlayaraq Beynəlxalq İnsan Hüquqları Komissiyasının təşkil olunması ilə insanlar arasında hüquqi bərabərliyə nail olmaq üçün hüquqi bazanın yaradılması yolunda ciddi addımlar atılmağa başlanılmışdır.

Birləmiş Millətlər Təşkilatı 1967-ci il 7 noyabrda qadınlara qarşı diskriminasiyanın ləğv olunması haqqında bəyənnaməni təsdiq etməklə, qadınların hüquqlarının müdafiəsi ilə bağlı mühüm addım atmış oldu.

Son dövrlər dünyada insan hüquqları sahəsində ən nüfuzlu ikinci konfrans 1993-cü ilin iyun ayında Avstriyanın paytaxtı Vyana şəhərində keçirilmişdir. Vyana şəhərində keçirilən Ümumdünya hüquqları sahəsində keçirilən konfransda qəbul olunmuş qətnamədə ilk dəfə olaraq qadın hüquqlarının toxunulmazlığı elan olunmuş və onun həyata keçirilmə ardıcıllığı qeyd olunmuşdur.

Vyana bəyənnaməsində qadın və qızların hüququ mahiyyətcə ümumdünya insan hüququnun ayrılmaz tərkib hissəsi kimi göstərilmişdir. Qadınların milli, regional, dünya səviyyəsində siyasi, mülki, iqtisadi, ictimai məsələlərdə tam və bərabər hüquq əsasında iştirakı, cinsinə görə bütün diskriminasiyaların ləğvi dünyada əsas prinsipial məsələ kimi qəbul olunur.

İkinci fəsil **“Qadın əməyinin mühafizəsinin institutsional təminatları”** adlanır və üç yarımfəsilə bölünür. **"Qadın əməyinin mühafızəsi üzrə mövcud beynəlxalq mexanizm və prosedurlar"** adlanan birinci yarımfəsildə qadınların əməyinin mühafizəsi üzrə mövcud beynəlxalq mexanizm və proseduralar tədqiq və təhlil olunmuşdur.

Beynəlxalq Əmək Təşkilatı işsizliklə effektiv mübarizə aparmaq məqsədilə məşğulluq sahəsi üzrə strategiyanın hazırlanmasını özünün əsas məqsədlərindən hesab edir. Bu baxımdan İran İslam Respublikasında bu sahədə mövcud problemləri aradan qaldırmaq üçün beynəlxalq standartlara uyğun qanunların hazırlanması və diskriminasiya xarakterli qanunları ləğv etməklə qadınların hüquqlarını müdafiə etmək mütləqdir.

İnsanların əmək məşğulluğunun təmin olunması İnsan hüquqları bəyannaməsi, iqtisadi, ictumai və mədəni hüquqlar üzrə beynəlxalq pakt, Qadınlar əleyhinə diskriminasiyanın aradan qaldırılması konvensiya kimi beynəlxalq sənədlərdə, qadın məsələləri üzrə beynəlxalq sazişlərdə və Beynəlxalq Əmək Təşkilatının müqavilələrində öz əksini tapmışdır.

Müasir qloballaşan dünyada hüququn beynəlxalq sənədlərdə diskriminasiyanın qarşısının alınması məqsədilə yeni meyar və qaydaların əks olunmasını müşahidə etmək mümkündür.Bu məsələ



ilk dəfə olaraq insan hüquqları barədə beynəlxalq bəyannamədə (1948-ci il) öz əksini tapmışdır. Bu bəyannamədə qadın və kişilərin hüquqlarının bərabər olmasına da diqqət yetirilmişdir. İqtisadi, ictimai və mədəni hüquqlar barədə beynəlxalq aktda da (1966) üzv dövlətlərin də bu sahədə lazımi öhdəlikləri yerinə yetirilməsi əsas vəzifə kimi onların qarşısında qoyulmuşdur. Diskriminasiyaların qarşısının alınması barədə bəyannamədə (1967) qadınların müxtəlif iqtisadi və ictimai sahələrdə bərabər hüquqa malik olması öz əksini tapmışdır. Bu konvensiyalara qoşulan ölkələrdən qadın hüququnun müdafiə edilməsi sahəsində ciddi addımların atılması tələb olunur.

Birləşmiş Millətlər Təşkilatının mühüm tədbirlərindən biri də qadın əməyinin hüquqi müdafiəsi sahəsində beynəlxalq konfransların təşkil edilməsidir. Bu konfransların həyata keçirilməsində əsas məqsədlərdən biri də qadınlar və kişilər arasında məşğulluq sahəsində diskriminasiya siyasətinin aradan qaldırılmasıdır.

2007-ci ildə İslam Ölkələrində Qadınların Hüquq və Vəzifələri Nizamnaməsi qəbul edilmişdir. İslam ölkələrində qadınların hüquq və vəzifələri nizamnaməsi “İslam məzhəblərinin yaxınlaşdırılması təşkilatı” tərəfindən 2007–ci ildə “İslam sistemində qadınların hüquq və vəzifələri” adı altında keçirilən konfransda irəli sürüldü. Burada adınların yetkinlik yaşına çatdıqdan sonra əmək hüququna malik olmaları rəsmən elan edilmişdir. Onların istədikləri peşəni müstəqil şəkildə seçmək hüququ var.

İkinci fəslin **"Qadın əməyinin mühafizəsində Beynəlxalq Əmək Təşkilatının rolu" adlanan** ikinci yarımfəslində qadınların əməyinin mühafizəsində Beynəlxalq Əmək Təşkilatının rolu araşdırılır. Hal-hazırda bir çox ölkələrdə, qadınların işə marağı və təhsil alması, ictimai- iqtisadi sahələrdə fəaliyyəti, dünyanın simasını dəyişmiş və bu dəyişikliklərin həyata keçirilməsində Beynəlxalq Əmək Təşkilatının rolu böyükdür. Bu Təşkilatın fəaliyyəti əsasən beynəlxalq əmək standartlarının hazırlanması, təsdiq edilməsi və müxtəlif ölkələrdə beynəlxalq əmək standartları - qanunlarının icrasına tam nəzarətin təmin edilməsi və BƏT-ə üzv ölkələr tərəfindən texniki və mütəxəssis xidmətlərinin həyata keçirilməsindən ibarətdir.

Təsdiq edilmiş müqavilələrdən istifadə edərək müxtəlif ölkələrin qanunverici orqanlarına nümunələr təqdim olunması yolu ilə BƏT-ə üzv ölkələrin öz daxili qanunlarını bu nümunələrə

uyğunlaşdırılması təşviq edilir. Bu ölkələr də öz hesabatlarında həmin qanunların təsdiq və ya rədd edilməsi məsələsinin müvafiq ekspert komitələri tərəfindən müzakirə edilməsi üçün Beynəlxalq Əmək Təşkilatına müraciət edirlər. Bu hesabatlar standartlar komitəsi tərəfindən dəqiq və əsaslı surətdə müzakirə olunur və ekspert araşdırmalarında hər hansı bir ölkə əmək qanunlarının və insan hüquqlarının pozucusu kimi aşkar edilərsə, həmin ölkənin adı Beynəlxalq Əmək Təşkilatının xüsusi bir paraqrafında qeyd edilir və beləliklə, qadın əməyinin müdafiəsi üçün siyasi vasitələrdən də istifadə olunmuş olur.

Məşğuliyyət sahəsinə aid ümumi siyasət öz əksini adətən beynəlxalq sənədlərdə tapır. Beynəlxalq Əmək Təşkilatı məşğuliyyət üzrə meyar və prinsipləri müəyyən etmək üçün bu günə qədər çoxlu səylər göstərib. 1969-cu ildə Beynəlxalq Məşğuliyyət Proqramının hazırlanması və məşğuliyyət sahəsində üçtərəfli konfransın keçirilməsi, gəlirin bölünməsi, ictimai inkişaf və əməyin beynəlxalq bölgüsü bu səylərin nəticəsi hesab oluna bilər. Amma bu təşkilatın müxtəlif dövlətlərə məşğuliyyət sahəsində təqdim etdiyi ümumi siyasət daha mühüm addım hesab olunur. Bu sahədə təqdim edilən və məşğuliyyət siyasətini özündə əks etdirən 122 saylı Protokol dövlətlərə tövsiyə olunmuş mükəmməl bir sənəd kimi dəyərləndirilir.

İranda Əmək və Sosial Müdafiə Nazirliyi tərəfindən Beynəlxalq Əmək Təşkilatının bir sıra icbari müqavilələri (o cümlədən, məşğulluq sahəsində diskriminasiyaların aradan qaldırılması ilə bağlı) qəbul olunmuşdur. Eyni zamanda bu təşkilatın qeyri-icbari tövsiyələri İran tərəfindən qəbul edilərək tətbiq edilmişdir. Hətta İran İslam Respublikasının Konstitusiyasında İslami dəyərlər əsas tutularaq, diskriminasiyanın aradan qaldırılması prinsipi də qəbul olunmuşdur. Son on il ərzində İranda qəbul olunmuş Əmək qanunu müxtəlif prinsipləri, o cümlədən məşğulluq sahəsində diskriminasiya siyasətinin aradan qaldırılması bərabər əmək müqabilində bərabər əmək haqqının ödənilməsi prinsiplərini qəbul etmişdir. 1980-cı ildə təsdiq edilmiş Əmək qanunu müxtəlif prinsipləri nəzərə alsa da İran dünyanın bir çox ölkələri kimi əmək hüququ sahəsində beynəlxalq standartlardan hələ də çox geri qalır. Məsələn, İranda ölkənin idarə olunmasında yuxarı vəzifə bölgüsündə qadınların iştirak etməməsi, məhdudiyyətlərin olması, əmək



təhlükəsizliyinin təmin olunmaması və s. bu vəziyyətə misal ola bilər.

İkinci fəslin **"Qadın əməyinin mühafızəsini təmin edən milli mexanizmlər"** başlıqlı üçüncü yarımfəslində qadınların əməyinin mühafizəsini təmin edən milli mexanizmlər müəyyənləşdirilərək təhlil və şərh olunmuşdur.

İran İslam Respublikası bu sahədə mövcud problemləri aradan qaldırmaq üçün müvafiq qanunları hazırlamağa və diskriminasiya xarakterli qanunları ləğv etməklə qadınları bir işçi qüvvəsi kimi müdafiə etməyə borcludur. İranda qadın əməyi sahəsində ümumi siyasət bilavasitə konstitusiya tərəfindən tənzimlənir. Burada qadınların ümumi məşğuliyyət siyasətini qadınların hüquq və istəkləri ilə bərabər şəriətin əsasları və Iran İslam Respublikasının dövlət quruluşu prinsipləri müəyyən edir. İran Konstitusiyasının 28-ci maddəsinə görə məşğuliyyət qarşısında qoyulan əsas şərt onun islam qanunlarına, ictimai qaydalara və başqalarının hüquqlarına zidd olmaması təşkil edir. İnsanların hər hansı bir işə məcbur edilməməsi, peşə seçimində sərbəstliyin, eləcə də tam məşğulluğun təmin olunması məqsədilə hamı üçün lazımi şəraitin yaradılması iqtisadi sistemin əsas prinsipləridir. Bununla bağlı İran İslam Rspublikası BƏT-nın 122 saylı Protokoluna qoşulmuşdur və həmin Protokolun 1-ci maddəsinə əsasən aşağıdakı vəzifələri yerinə yetirməyi öz öhdəsinə götürmüşdür:

1. Tam məşğulluğun təmin olunması məqsədilə bu siyasəti həyata keçirməsini.

2. İşləmək və hər hansı bir xidmət sahəsində çalışmaq istəyən insanlar üçün müvafiq əmək imkanların yaranmasını və təqdim edilən əmək növü onun üçün münasib olmasının təmin edilməsini.

Qadın əməyi sahəsində ümumi siyasəti tənzimləyən digər təsisatlar da var. Buna misal olaraq, Qadınların İctimai-Mədəni Şurasını göstərmək olar. Bu şura İran İslam Respublikasında qadın əməyi üzrə ümumi siyasət layihəsini 11/08/1992-ci ildə təsdiq edilmək üçün Ali Mədəni İnqilab Şurasına təqdim etmişdir. Bu layihədə qadınların ailədəki əsas vəzifələri, bu müqəddəs ocaqda effektiv və faydalı əməyinin zəruriliyi və İran İslam Respublikasında qadın əməyi siyasəti öz əksini tapmışdır. Layihənin ikinci bəndində qadınların əmək fəaliyyətinin əhəmiyyəti vurğulanmış və göstərilmişdir ki, qadınların ictimai-iqtisadi, mədəni və idarəçilik

sahəsində fəaliyyəti cəmiyyətdə ictimai və uca yaradanın buyurduğu ədalətin bərqərar olunmasının mühüm vasitələrindən biridir və bu prinsipin icrası zəruridir. Qadın əməyi həm də əmək qanunu tərəfindən tənzimlənir. Dövlət əmək qanununda işsizliyin aradan qaldlırılması üçün əmək siyasəti müəyyənləşdirilir və çıxış yollarını axtarılır. Əmək Məcəlləsinin 119-cu maddəsinə görə Əmək və İctimai Təminat Nazirliyi bütün ölkə üzrə məşğulluq problemləri ilə bağlı mərkəzlərin yaradılmasını həyata keçirməlidir.

İran qanunlarına görə qadın ev işlərini görməyə borclu deyildir və evdə gördüyü işin haqqını ərindən tələb edə bilər, istər bu iş könüllü olsun, istərsə də adət-ənənəyə uyğun könüllü hesab olunsun. Qadın hüquqları himayəsi üzrə siyasət əsasında “qadınların ictimai sığortası” layihəsi həyata keçirilir. Buna görə də cəmiyyətdə sığortanın müxtəlif səviyyədə yayılması və genişləndirilməsi məqsədilə və İctimai Təminat üzrə Sədrlər Şurası qərarının 34-cü bəndinin icrası istiqamətində müxtəlif peşə sahiblərinin sığortalanması 2008-ci ildən həyata keçirilir.

Konstitusiyadan başqa, cəmiyyətdəki fərdlərin sosial təminatı əmək qanunundan irəli gələn müddəaların onlara şamil edilib-edilməməsindən asılı olmayaraq dövlət tərəfindən həyata keçirilməlidir. Bu məqsədlə sosial təminat qanunu (3/4/1976 –cü ildə təsdiq edilmiş) və işsizlikdən sığortalanma haqqında qanunu (26/06/1991–da təsdiq edilmiş) dövlətin bu sahədə atdığı mühüm addımlardan biri hesab etmək olar.

Dissertasiya işinin üçüncü fəsli “**Qadın əməyinin mühafizəsi sahəsində beynəlxalq standartların İran İslam Respublikasında implementasiyası”** adlanır və üç yarımfəsildən ibarətdir. Bu fəslin "**İran İslam Respublikasında qadın əməyindən istifadənin, qadin əməyinin mühafızəsinin tarixi və hüquqi aspektləri"** adlı birinci yarımfəslində tədqiq olunan ölkə üzrə qadın əməyindən istifadənin və qadın əməyinin mühafizəsinin tarixi və hüquqi aspektləri araşdırılmış və öz elmi təhlilini tapmışdır.

Paleontoloji tədqiqatlardan məlumdur ki, əmək bölgüsü ən qədim dövrlərdən mövcud olmuşdur. Buna misal olaraq təkcə qədim daş dövrü cəmiyyətini göstərmək kifayətdir. Kişilər ovçuluqla, qadınlar isə təsərrüfatla məşğul olurdular. Lakin kənd təsərrüfatı işləri qadınların səlahiyyətindən çıxıb kişilərin səlahiyyətinə keçəndən sonra qadınlar özlərinin kişilərlə bərabər hüquqlarını təmin



edən iqtisadi mövqeyini əldən verdilər. Quldarlığın meydana gəlməsi kişilərin qüdrətini artırdı, qadınların cəmiyyətdə nüfuzu və dəyəri azaldı.

Orta əsrlərdə Avropada, hətta Amerika Birləşmiş Ştatlarında qadınlar kişilərin mülkiyyəti hesab olunurdular və heç bir əlahiddə qanuni huquqa malik deyildilər. Bu dövrdə hakim qüvvələrdən biri olan kilsə qadınları qadınlar kişilərdən zəif və aşağı bir varlıq hesab edirdi. Buna görə də mədəniyyət mərkəzləri dini ibadət mərkəzlərindən yığışdırıldı və məktəblərə, unversitetlərə köçürüldü. Beləliklə, XIV əsrdə qadınlar cərrahlıq, qadın bərbəri kimi peşələrdən özlərinə müəyyən mövqe tutsalar sonralar bu peşələrdə işləmək onlara qadağan olundu. Qərbi Avropada sənaye inqilabı, ev emalatxanalarının zavodlara çevrilməsi, insanın işçi qüvvəsini maşın qüvvəsi ilə əvəz olunması iş məfhumunda və formasında əsaslı dəyişikliklərə səbəb oldu, qadınların evdəki fəaliyyəti zavodlara köçürüldü.

I və II Dünya Müharibələri dövründə qadınların çoxu İngiltərə, Fransa silah zavodlarında işləməyə başladılar. Uşaq saxlamaq üçün qadınlara imtiyazlar, yaşayış məskənləri verildi ki, onlar öz vəzifə borclarını yerinə yetirə bilsinlər. Bu dövr ərzində də fəhlə qadınlar öz sinfi mübarizələrini davam etdirməsinə misal olaraq 1916-cı ildə silah zavodlarında işləyən qadınların tətilini göstərmək olar. İşçi qadınlar əməkhaqlarının artırılmasını tələb edirdilər.

İkinci dünya müharibəsindən sonra beynəlxalq proseslərin dəyişilməsi ilə cəmiyyətlərdə ciddi dəyişikliklər baş verməyə başladı. bu da qadınların əməyinin hüquqi mühafizəsində başlıca rol oynadı. Belə ki, sənaye sahələrinin inkişafı qadınların əməyinə öz təsirini göstərərək, onların ənənəvi əməyinin növlərindən sənaye sahələrinə yönəlməsinə səbəb olmuşdur.

İranda da qadın əməyinin öz inkişaf tarixi var. İranda qadınlar qədim zamanlardan evdarlıq, müxtəlif kənd təsərrüfatı, kustar sənayesi sahələrində şəkildə çalışırdılar. İctimai inkişafın matriarxat dövrünə düşən madlar zamanında qadınlarla kişilər cəmiyyətdə bərabər sosial statusa malik olmuşlar. Əhəmənilər dövründə də bu tndensiya davam və inkişaf etmişdir. Əhəmənilərin süqutundan sonra qadınların mövqeyi zəifləməyə başladı və bu vəziyyət sasanilərin dövrünədək davam etdi. Onların dövründə vəziyyət bir az dəyişdi və qadınlar keçmiş məhdudiyyətdən azad

olmağa başladılar. Amma sasanilər hakimiyyətinin genişlənməsi və digər tayfaların adət-ənənələrinin iranlılara təsir etməsi üzündən İranın ictimai quruluşunda nəzərəçarpacaq dəyişikliklər verdi və bu qadınların mövqeyinə də öz təsirini göstərdi. İslam dininin meydana çıxması cəmiyyətin qadınlara münasibətdə düşüncə tərzini dəyişdi və onlar hüquqi şəxslərə çevrildilər. Onlara kişilərin tərəfdaşı kimi baxılırdı. Qadınların cinsiyyətə görə kişilərin işinə qarışmaması onların lazımi şəxsiyyətə malik olmaması demək deyildi. Əksinə, əmək bölgüsü qaydası, ixtisas, qadınlara məxsus olan xüsusiyyətlər (hamiləlik, zahılıq və s.) onların bəzi işlərdən uzaqlaşmasını tələb edirdi. Dəyişikliklər qadınlarla kişilərin hüquq bərabərliyini, hər cür diskriminasiyanın ləğvini və imtiyazları da əhatə etdi.

Sonrakı dövrlərdə də patriarxat quruluşu davam etdi və İran qadınları dünyasında başqa şərq ölkələrində olduğu kimi evdə oturdular, qapalı oldular.

Pəhləvilər dövründə İranın qərb sivilizasiyasi ilə geniş əlaqələri, ölkənin iqtisadi-ictimai quruluşunda dəyişikliklər paytaxtda və ölkənin başqa böyük şəhərlərində qadınların ictimai mövqeyini dəyişdi. Lakin kənd və tərəkəmə qadınlarının həyatında (qərb dəyərlərindən uzaq olduqları üçün) əsaslı dəyişiklik baş vermədi. Pəhləvilər rejimində də qadınlar yeni sənayeyə, xidmət sahələrinə daxil olmaqda davam edirdilər. Ancaq onlardan yenə də ucuz işçi qüvvəsi kimi milli ənənəvi sənayedə və yeni fəaliyyət sahələrində istismar olunurdular. Neft sənayesinin inkişafı və yardımçı sənaye sahələrinin yaranması və İranın modernləşmə siyasəti İran fəhlələrinin və orta şəhər təbəqəsinin sayının artmasına səbəb oldu.

1357-ci ilin bəhmən ayında (fevral 1979-cu il) pəhləvi rejimi xalq inqilabı tərəfindən devirildi. İran qadınları da inqilab dövrü nümayişlərdə fəal rol oynamışdılar. İmam Xomeyni qadınların kişilərlə hüquq bərabərliyini və şəriətə görə bütün ictimai sahələrdə azadlıqlarını elan etmişdi. O inqlilabın qələbəsi ərəfəsində Elsefirə demişdi: «Qadınlar seçib-seçilmək hüququ azadlığına, təhsil azadlığına, işləmək azadlığına malik olmalı, bütün iqtisadi fəaliyyət növlərində təşəbbüs göstərməlidirlər».

Üçüncü fəslin "**Qadın əməyinin mühafızəsi sahəsində İran İslam Respublikasının qanunvericiliyi və beynəlxalq hüquq: müqayisəli təhlil"** adlanan ikinci yarımfəslində qadınların əməyinin mühafizəsi sahəsində İran İslam Respublikasının qanunvericilik



sistemi və beynəlxalq hüquq sahəsində yaranmış vəziyyət müqayisəli təhlil olunmuşdur.

İran İslam inqilabından sonra dinc quruculuq dövründə qadınların ictimai-siyasi fəaliyyəti daha da yüksəlməyə başladı. Bir çox qadın vətəndaşlar mövcud imkan və vasitələrdən bəhrələnərək cəmiyyətdə parlaq uğurlar qazanmağa başladılar. Qadınların təhsil səviyyəsinin artması və xüsusilə müxtəlif ali təhsil müəssisələrində təhsillərini artırması onların müxtəlif iqtisadi sahələrdə fəaliyyətinə əlverişli şərait yaratdı. Nəticədə qadınların fəaliyyət dairəsi genişlənməyə başladı. Son illər bütün dünyada beynəlxalq hüququn inkişaf etməsi ilə bağlı olaraq qəbul olunmuş qanunlarda hər cür diskriminasiyanın, o cümlədən cinsi diskrimiasiyanın qarşısının alınmasına böyük diqqət yetirilir. BMT beynəlxalq konfrans və iclaslar keçirməklə, qadın əməyinin hüquqi mühafizəsi sahəsində xüsusi komitə və komissiyalar yaratmaqla, eyni zamanda regional və milli toplantılar keçirməklə qadınların hüququnun beynəlxalq səviyyədə qorunması məsələsini daim diqqət mərkəzində saxlayır. Qeyd olunan konfranslara nümunə olaraq Mexiko, Kopenhagen, Nayrobi, Pekin konfranslarının adını çəkə bilərik. Lakin bəzi ölkələrdə əməyin mühafizəsi sahəsində bəzi problemlər hələ də qalmaqdadır.

Beynəlxalq Əmək Təşkilatı cinsi mənsubiyyət nəzərə alınmadan bərabər əmək müqabilində bərabər əmək haqqı ödənilməsini əsas prinsip kimi qəbul etmişdir. İran İslam Respublikasının əmək qanunu əvvəlki əmək qanunu ilə müqayisədə əməkhaqqı üçün hər hansı bir məfhum nəzərdə tutmamış və əməkhaqqının ümumi tərifini onun xüsusi mənasından ayırmışdır. Əməkhaqqı işçinin gördüyü işin müqabilində ona ödənilir. Əməkhaqqı dedikdə 100 saylı protokolun 1-ci maddəsinin “a” bəndinə əsasən adi əməkhaqqı ödənişləri, əsas əməkhaqqı və ya minimum əməkhaqqı və sahibkar tərəfindən nəğd ya da maddi şəkildə işçiyə təqdim edilən ödənişlər nəzərdə tutulur. Əmək haqqı bərabərliyi prinsipinin beynəlxalq hüquqda öz əksini necə tapması da qadın əməyinin mühafizəsi birbaşa əlaqədardır. Qadın və kişilərin eyni dəyərli iş müqabilində bərabər əməkhaqqı almasını nəzərdə tutan bu prinsip 1919-cu ildə Beynəlxalq Əmək Təşkilatının əsasnaməsinin ilkin mətninin 41-ci maddəsində öz əksini tapmışdır. Bu prinsip həmin əsasnamənin 1946–cı ildə redaktə edilmiş mətninin

preambulasında da qeyd edilmişdir. Əlavə olaraq 1948-ci ildə beynəlxalq insan hüquqları bəyannaməsi təsdiq olundu. ki, onun da 23-cü maddəsində deyilir: Bütün insanlar heç bir diskriminasiyaya uğramadan bərabər iş müqabilində bərabər əmək müqabilində bərabər əməkhaqqı ala bilərlər. İşlə məşğul olan hər bir şəxsin ədalətli şəkildə və onu razı salacaq əməkhaqqı almaq hüququ var. İşçinin aldığı əməkhaqqı onun və ailəsinin tələbatlarını lazımi səviyyədə təmin etməlidir.

Həmçinin 1966-cı ildə təsdiq olunmuş İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Paktın 7-ci maddəsində göstərilmişdir ki, ədalət və bərabərlik prinsipi əsasında heç bir fərq qoymadan eyni dəyərə malik işə görə eyni əməkhaqqının ödənilməlidir. Bu halda qadınlar iş prosesində onların əməyinə kişilərlə bərabər şəkildə əməkhaqqının ödənilməsində ədalətə yerinə yetrildiyinə arxayın olmalıdırlar.

İranın Şura Məclisi 1972-ci ildə İran dövlətinə 100 saylı Protokola qoşulmağa icazə verdi.

Üçüncü fəslin **"Qadın əməyinin mühafizəsi sahəsində İran-İslam Respublikasının qanunvericiliyi ilə beynəlxalq hüquq normaları arasındakı kolliziyaların aradan qaldırılması yolları"** adlı üçüncü yarımfəsli qadınların əməyinin mühafizəsi sahəsində yerli qanunvericilik sistemi ilə beynəlxalq hüquq normalarındakı kolliziyaların aradan qaldırılması istiqamətləri və s. tədqiqinə həsr olunmuşdur. Müasir dünyada qadın əməyi problemi ictimai problemlərin ən aktuallarından biri sayılır. Qadınlar dünya cəmiyyətinin yarısını təşkil etdiyindən, `onların əmək növlərinin araşdırılması, bu sahədə meydana çıxan problemlərin köklərinin tapılması və onların sonrakı həlli müasir cəmiyyətdə zəruri əhəmiyyətə malik məsələlərdəndir.

İran İslam Respublikasında, eləcə də bəzi Cənubi-Şərqi Asiya dövlətlərində qadınların əleyhinə diskriminasiyanın bariz nümunəsi kimi onların kişilərlə bərabər şəkildə siyasi və ictimai sahələrdə iştirakından məhrum olmasını göstərmək mümkündür. Ümumiyyətlə, qadınların əleyhinə hər cür diskriminasiyanın ləğv edilməsi üzrə qəbul olunmuş beynəlxalq konvensiyalarda insanların cinsi faktorundan asılı olmayaraq onların ictimai həyatda əmək fəaliyyətinə diqqət yetirilməsi davamlı inkişafın əsas tələblərindən hesab olunur. Qeyd etmək lazımdır ki, qadınların məşğulluq



sahəsindəki maneələrini hər hansı bir qanunun təsdiq edilməsi və ya digər bir qanunun ləğv edilməsi yolu ilə aradan qaldırmaq mümkün deyildir. Bu maneələrin kökü mövcud adət-ənənələrdən, ictimai baxışlardan və fiziki amillərdən qaynaqlanır. Dövlətlər bununla əlaqədar həmin maneələri aradan qaldırmaq üçün lazımi tədbirlər həyata keçirməlidirlər.

Ümumi şəkildə özündə iqtisadi və ictimai əlaqələri tam şəkildə ehtiva edən iqtisadi inkişaf nöqteyi-nəzərdən qadınların əmək qüvvəsindən istifadə etmək labüd bir proses kimi nəzərə alınmalıdır. Prinsipcə qadınların əmək məşğulluğu iqtisadi inkişafda mühüm rol oynaya bilər. Onların əmək fəaliyyətinin qarşısının alınması isə iqtisadi inkişaf tempinə mənfi təsir göstərə bilər.

Dünya XX əsrin əvvəllərindən qadınların evdənkənar iqtisadi fəaliyyəti adlı ictimai-iqtisadi yeniliklə üz-üzə gəldi. İranda qadınların əmək məşğulluğu üzrə vəziyyət inkişaf etməkdə olan ölkələrdəki kimi arzuolunan səviyyədə deyildir. Qadınlar həmişə daha az əmək məşğulluğu imkanlarına malikdirlər və adətən qeyri-rəsmi sahələrdə az miqdarda əməkhaqqı müqabilində əmək fəaliyyəti göstərirlər.

Məşğulluq sahəsində siyasətin icrası, həmçinin qadınlar arasında işsizliyin aradan qaldırılması üçün qeyd olunan şərtlərin olması zəruridir: hər bir əmək fəaliyyəti ilə məşğul olmaq istəyən və iş axtaran şəxslər üçün məşğulluq imkanı mövcud olmalıdır, onlar üçün yeni iş yerləri yaradılmalıdır; irqi mənsubiyyət, rəngindən, dinindən, cinsindən, siyasi əqidəsindən, milli mənsubiyyətindən, ictimai mövqeyindən asılı olmayaraq məşğulluq sahəsinin seçilməsində tam azadlığın təmin edilməsi və münasib məşğulluq sahəsinin əldə edilməsi imkanının yaradılması ilə şəxsin istedad və qabiliyyətindən yararlanmaq. İran dövləti qeyd olunan bu və ya digər şərtləri nəzərə alan beynəlxalq razılaşmalara qoşulmuşdur. İranın bu sahədə hərtərəfli aktiv siyasəti ölkənin mövcud vəziyyəti ilə uyğun şəraitdə həyata keçirilir.

Əksər islami ölkələrdə qadının hüquq və vəzifələri barədə nizamnamədə qadınların məşğulluğunun təmin olunması (işləmə həddinə çatdıqda) rəsmi hesab olunur. Bu halda qadınların istədikləri məşğuliyyət sahəsini azad şəkildə seçmək icazəsi verilir. Həmçinin onlar seçdikləri məşğuliyyət sahələri üzrə ixtisasartırma kurslarından və mövcud informasiya resurslarından istifadə imkanlarına malikdir.

Qadınlara həmçinin bərabər iş müqabilində kişilərlə eyni miqdarda əmək haqqı ödənilməlidir. Qadınlar həmçinin iş mühitində təhlükəsizliyə nail olunmalı, ailə vəzifələri(şərait) ilə bağlı münasib imtiyazlara və münasib sosial təminata malik olmalıdır.

İran İslam Respublikasında qadınların məşğulluq sahələrini əsasən dörd qrupa ayırırlar: qadınların fəaliyyət göstərməsi üçün münasib hesab olunan məşğulluq sahələri; qadınların psixi və fiziki xüsusiyyətlərinə uyğun məşğulluq sahələri; qadınlar və kişilər üçün ayrılıqda heç bir üstünlük yaratmayıb bu sahələr üzrə seçimin təbii şəkildə həyata keçirdiyi məşğulluq sahələri; qadınların fəaliyyət göstərməsi və mövcud adət-ənənələr, ictimai və mədəni dəyərlər nöqteyi-nəzərdən, həmçinin əmək fəaliyyətinin, şəraitinin ağırlığı üzündən qadınlar üçün münasib hesab olunmayan məşğulluq sahələri və s.

Mülki və siyasi hüquq barədə beynəlxalq müqavilə ailəni cəmiyyətin təbii və əsas ünsürlərindən hesab edərək ailə institunun dövlət tərəfindən himayə olunmasında təkid edir. Son dövrlər bütün dünyada qəbul olunmuş beynəlxalq sənədlərdə (qadın əməyinin hüquqi mühafizəsi sahəsində) qadınlara qarşı diskrminasiya halları aradan qaldırılmaqla, iqtisadi fəaliyyətlə məşğul olan qadın sahibkarlar üçün yeni texnologiyalarla tanış olmaq, kredit və maliyyə məsələləri sahəsində lazımi məşğulluq imkanlarının yaradılması önə çəkilmişdir. Qadın əməyinə əngəl törədən faktorlardan biri də bəzi qadın işlərinin əmək növü hesab edilməməsidir. Məsələn, cəmiyyətdə qadınların əsas vəzifəsi sayılan evdarlıq, əmək növü sayılmadığı kimi, kənd qadınlarının da əkinçiliklə məşğul olması evdarlıq hesab edilərək əmək növü sayılmır.

Qadınlara ev şəraitində gördükləri işlərin müqabilində əməkhaqqı ödənilmir. Onların ana və həyat yoldaşı kimi bu çalışmasının ailə xərclərinnə təsiri qiymətləndirilmir. Əgər qadınlar hər hansı bir səbəbdən evdarlıq vəzifəsini yerinə yetimirlərsə, bu ailə məcburiyyət qarşısında qalıb, ailə büdcəsindən müəyyən məbləq ödəməklə, ev işlərini yerinə yetirmək üçün bir nəfəri qəbul edirlər. Bir evdar qadınının işi maddi cəhətdən həmin ona ödənilməyən əmək haqqıdır.

Ölkə konstitusiyasının 28-ci və 43-cü maddəsini və İran İslam Respublikasının perspektivlərini əldə əsas tutaraq, bu əmək növü ailə vəzifələri ilə bağlı 5 illik inkişaf proqramına daxil etmişdir.



Bununla da evdarlıq vəzifəsi 2010-cu il Aprel 21-də təsdiq olunmuş oldu. Bu əmək növünün əsas məqsəd ondan ibarətdir ki, işə ehtiyacı olan cavan qadınlar və qızlar, xüsusilə, ailə başçısı olmayan dul qadınlar yaşayış binalarında, sahələrində, qeyd edilən proqram çərçivəsində icazə verilən işlərlə, heç bir narahatçılıq olmadan, rahat məşğul olsunlar.

İran dövləti ailədə olan qadınların məşğulluğunu himayə etmək və cəmiyyətdə əmək münasibətlərini yüksəltmək, qadınların əməyinin hüquqi mühafizəsi sahəsində maarifləndirmək və onların bacarıqlarının artırılması məqsədilə məşğulluq sahəsində bir sıra layihələri reallaşdırmağa başlamışlar ki, bu layihələrə əsasən də qadınlar bir sıra ənənəvi məşğulluq sahələrində, o cümlədən (xalq yaradıcılığı sahələrində, xalça toxuculuğu, əl işləri sənəti və s.) qadınlar üçün münasib olan məşğulluq sahələrində çalışa bilərlər.

**Nəticədə** aparılmış tədqiqat və araşdırmalar nəticəsində əldə edilmiş nəzəri və təcrübi əhəmiyyətli nəticələr, qadın əməyinin hüquqi mühafizəsi İran İslam Respublikasının qanunvericilyinin təkmilləşdirilməsinə dair təklif və tövsiyələt öz əksini tapmışdır.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllifin aşağıdakı elmi əsərləri çap olunmuşdur:**


1. İranda qadın məşğulluğunun tarixi // AMEA-nın Elmi Əsərləri, 2009, №1, s.371-374.
2. İran qanunvericiliyində qadınların iqtisadi hüququ // Dirçəliş-XXI əsr, 2010, №143-144, s.210-215.
3. İran İslam Respublikası qanunlarında nikah xərcləri // Azərbaycan Milli Elmlər Akademiyası İqtisad İnstitutu, Bakı, may 2008-2009, s.162-164.
4. Ailə başçısı olan qadınların problemləri və onların həlli yolları, Ulu Öndər Heydər Əliyevin ad gününə və Azərbaycan Respublikasının dövlətçiliyinin bərpasının 20 illiyinə həsr olunmuş ″Hüquq elminin və təhsilinin müasir problemləri və həlli yolları″adlı beynəlxalq konfransın materialları, II hissə, Bakı, 2011, s. 365-366.
5. Права женщин на труд в международном праве // Журнал публикаций аспирантов и докторантов, 2010, №2, s.41-43.

6. İran: Qadınların məşğulluq sahəsində sosial, iqtisadi və mədəni problemləri. Strateji Təhlil, Azərbaycan Respublikasının daxili və xarici siyasəti: Beynəlxalq münasibətlərə dair analitik jurnal, 2012, № 4, s.109-116.
7. Мировые стандарты по зашите жетской рабочей силы // Гилея: науковий вестник Збірник наукових праць. Выпуск 64 (№ 9), Киев, 2012, с.174-178.
8. Beynəlxalq sənədlərdə əməyin diskriminasiyasına yol verilməməsi prinsipləri // Azərbaycan Milli Elmlər Akademiyası Hüquq İnstitutu Elmi Əsərlər, № 2 (19), 2013, s.164-167.



**9.**

**Ибрахими Теййибе Али кызы**

**Правовая охрана женского труда: международное право и законодательство Исламской Республики Иран**

**РЕЗЮМЕ**

Диссертация состоит из введения, трех глав, девяти подразделов, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, излагаются научная новизна, цель и задачи, научно-теоретические и методологические основы, теоретическая и практическая значимость работы.

В I главе, озаглавленной «Понятие охрана женского труда и его нормативное регулирование» было исследовано место и значение понятия «охрана женского труда» в международном трудовом праве и национальном законодательстве, рассмотрены основные осбенности охраны женского труда и возможности внедрения международных стандартов в области охраны женского труда.

Во II главе под названием «Институциональное обеспечение охраны женского труда» был исследован существующий международный механизм и процедуры по охране женского труда, проанализирована роль Международной Организации Труда в охране женского труда, определены национальные мехзанизмы обеспечения охраны женского труда.

В III главе, озаглавленной «Применение в Исламской Республики Иран международных стандартов в области охраны женского труда» было рассмотрено использование женского труда по стране, история и правовые аспекты охраны женского труда, проведен сравнительный анализ законодательной системы Исламской Республики Иран в области охраны женского труда и положение в международном праве в этой сфере, проанализированы направления устранения имеющихся противоречий между местной законодательной системой в области охраны женского труда и международными правовыми нормами и др.

В заключительной части исследования, обобщив исследованные в главах задачи, были выдвинуты научно-

обоснованные предложения в области охраны женского труда в Иране.

**İbrahimi Teyyibe Ali kızı**

**The Law protection of woman labour : international law and legislation İran İslamic Republic**

**SUMMARY**

The dissertation work consist of indroduction, three chapters, Conclusions and suggestions and list of used literature.

İn the "İntroduction" there is given ground of necessity of research, the discription of research condition in economic litersture is described the target, exercises, object of research, its scientific innovation, theoretical and practical meanigs are defined; the results of research, publications and the structure of work are mentioned.

In the first part - "Conseption of protection of woman labour and its norm regulation" conseption of labour protection and its role in international labour law and natonal legislation, Basic peculiarities of protection women labour, İnternational standards in prorection of women labour are investigated.

İn the second part – "İnstitutional securing of protection of woman labour" international mechanism and protection of women labour, the role of International Labour Organization (ILO) on protection of women labour, the national mechanisms for protection of labour woman are also analyzed.

İn the third part - "The implementation of international standarts in field protection of labour woman in İran İslamic Republic" using of labour of woman on country and historical, law aspects of protection of women labour, comparative analyze of national legislation an international situation, using of important law norm are investigated as well.

At the end general results are given made by the author in the process of research, some suggestions on the basis on science are presented for improvement of protection of woman.



Çapa imzalanmışdır:07.07.2014.
Kağız formatı:60x84 1/16.
Sayı 100

AMEA-nın mətbəəsində çap olunub

**МИНИС[illegible]БРАЗОВАНИЯ**
**АЗЕРБАЙ[illegible] РЕСПУБЛИКИ**
**БАКИНС[illegible]ДАРСТВЕННЫЙ**
**УНИВЕРСИТЕТ**

---

*На правах рукописи*

**ТЕЙЙИБЕ АЛИ КЫЗЫ ИБРАХИМИ**

# ПРАВОВАЯ ОХРАНА ЖЕНСКОГО ТРУДА: МЕЖДУНАРОДНОЕ ПРАВО И ЗАКОНОДАТЕЛЬТСТВО ИСЛАМСКОЙ РЕСПУБЛИКИ ИРАН

5603.01- «Международное право; права человека»

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации на соискание научной степени
доктора философии по праву



**БАКУ – 2014**